***11** noyabr 2000-ci il tarixində Müstəqil Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyevin sərəncamı ilə 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı kimi təsis edilmişdir. Bu tarixin 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günlə eyni gün heç də təsadüfi deyil.*

***Azərbaycan Demokratik Respublikası 1920-ci il aprel ayının 27-28-də Sovet hökumətinin XI qızıl ordusu tərəfindən işğal edildikdən sonra inqilab komitəsinin 1920-ci il 13 may tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş və Xalq Ədliyyə Komissarlığı yaradılmışdır. Səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilən Xalq Ədliyyə Komissarlığı 1930-cu ildə ləğv edilərək funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsi və digər orqanlara verilmişdir.***

# Ədliyyə sistemi

## müasir tələblər səviyyəsində fəaliyyət göstərir

1970-ci il oktyabrın 27-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi yaradılıb və bununla da Azərbaycanın ədliyyə tarixində yeni mərhələ başlanıb. Ədliyyə Nazirliyi ardıcıl olaraq ədliyyə fəaliyyətini təşkil edib, əhaliyə hüquqi yardımı təkmilləşdirib, notariat fəaliyyəti və məhkəmə ekspertizasının aparılmasını təmin edib, ümumilikdə ədliyyə fəaliyyətini təkmilləşdirərək gələcək inkişafı üçün zəmin yaradıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra məhkəmə sisteminin fəaliyyətinin müasir standartlara uyğunlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, Ədliyyə Nazirliyinin cəmiyyətdəki rolu və əhəmiyyəti yüksəlib, nüfuzu artırılıb.

1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu, Hüquq İslahatları Komissiyasının yaradılması və səmərəli fəaliyyət göstərməsi, qısa müddətdə məhkəmə və hüquq-mühafizə orqanlarının fəaliyyətini tənzimləyən yeni hüquqi-normativ aktların qəbulu sürətli inkişafın əsasını qoydu. Nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilib.

Məhkəmə hakimiyyətinin keçdiyi şərəfli, eyni zamanda, çətin və fədakar yol çoxəsrlik tariximizin mühüm mərhələlərindən biridir. Siyasi quruluş nə olursa olsun, ədliyyə orqanlarının, xüsusən də məhkəmələrin qanunun aliliyinə, vəzifə səlahiyyətlərinin məsuliyyətlə həyata keçirilməsinə yönəlmiş fəaliyyəti həmişə zəruri olub. Bu baxımdan müstəqil dövlətimizin qorunmasında və möhkəmlənməsində müstəsna rol oynayan Azərbaycan Ədliyyə Günü təkcə ədliyyə işçiləri üçün deyil, həm də hər bir vətəndaş üçün böyük əhəmiyyət kəsb edir. Beləliklə, ədliyyə sistemi istənilən dövlətdə, xüsusən də demokratik cəmiyyətdə əsas qüvvədir. Bu gün fəxrlə deyə bilərik ki, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyən müstəqil Azərbaycan dövlətində möhkəm təməllər üzərində qurulmuş və müasir dünyanın tələbləri səviyyəsində fəaliyyət göstərən ədliyyə sistemi mövcuddur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqları və tövsiyyələri əsasında həyata keçirilən tədbirlər nəticəsində ədliyyə sistemi yeni və müasir unikal inkişaf mərhələsinə qədəm qoyub. Nazirliyin cəmiyyətdə mühüm rolunu müəyyən edən və ona hüquq-mühafizə orqanı statusu verən yeni nizamnaməsi təsdiq edilib. Ədliyyə və məhkəmə sisteminin inkişafı və müasirləşdirilməsi ilə bağlı proqram xarakterli fərmanların imzalanması, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" qanunların qəbulu, ədliyyənin inkişafı üçün xüsusi Dövlət proqramının təsdiq edilməsi ədliyyənin inkişafına mühüm təkan verib.

Ölkə başçısının "Məhkəmə sisteminin müasirləşdirilməsi haqqında" 19 yanvar 2006-cı il tarixli fərmanı ölkəmizin məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və inkişafında mühüm addım olmuşdur. Fərmanın icrası ilə bağlı Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası tərəfindən kompleks tədbirlər həyata keçirilir.

Ədliyyə işçilərinin, prokurorların və həmçinin, hüquq işçilərinin ixtisas və peşə vərdişlərinin artırılması məqsədilə hüquq sahəsində çalışan 10 min nəfərə xidmət göstərmək üçün Ədliyyə Akademiyası yaradılmışdır. Akademiyanın fəaliyyətinin müasir dünya təcrübəsinə uyğunlaşdırılması məqsədilə Avropa Şurası ilə birgə xüsusi İşçi Qrupu yaradılıb. Bununla paralel islahatlara uyğun olaraq Bələdiyyələrə inzibati nəzarət idarəsi, müxtəlif reyestrlər, həmçinin Əhalinin, Hüquqi Aktların və Qüvvədən Düşmüş Sənədlərin dövlət reyestrləri, eyni zamanda regional ədliyyə şöbələri yaradılıb, ədliyyə infrastrukturu yaxşılaşdırılıb.

Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" çərçivəsində təşkil edilən bu tədbirlər insan hüquqlarının müdafiəsi və Konstitusiya haqqında biliklərin inkişaf etdirilməsi məqsədi daşıyır.

Ölkəmizdə qurulmuş müasir məhkəmə sistemi vətəndaşların ədalət mühakiməsinə çıxışını təmin edir, regionlarda apelyasiya və ağır cinayət məhkəmələri, inzibati və kommersiya məhkəmələri uğurla fəaliyyət göstərir. Məhkəmə sistemi, hakim korpusu dünya standartlarına cavab verən şəffaf fəaliyyət əsasında formalaşdırılıb, məhkəmələrin normal fəaliyyəti üçün maddi-texniki infrastruktur yaradılıb. Müasir kommunikasiya texnologiyalarının, informasiya sistemlərinin tətbiqi nəticəsində ədliyyə orqanlarının fəaliyyətində şəffaflıq artırılıb, vətəndaşlara mülki hüquq münasibətlərindən irəli gələn problemlərin həlli üçün geniş imkanlar yaradılıb.

Dünya Bankı ilə Azərbaycan Respublikasının Hökuməti arasında ədliyyə naziri Fikrət Məmmədovun imzaladığı Ədliyyə sisteminin müasirləşdirilməsi layihəsi üzrə maliyyələşdirmə sazişi Azərbaycan Ədliyyəsinin inkişafı naminə atılan uğurlu addımlardan biridir.

Bu günlərdə ədliyyə işçiləri həm Zəfər gününü, həm də peşə bayramlarını qeyd etdilər. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ulu öndər Heydər Əliyevin və Azərbaycan xalqının ən böyük arzusunu - Qarabağın işğaldan azad olması arzusunu reallaşdıraraq noyabrın 10-da düşmənin təslim olması ilə başa çatan İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoydu.

Şuşanın işğaldan azad edilməsindən sonra üçrəngli bayrağımızın Şuşada ucaldılması Vətən müharibəsində dönüş nöqtəsi oldu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı, Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Geniş dünyagörüşə, dərin və hərtərəfli biliyə, möhkəm və qətiyyətli iradəyə malik olan Ali Baş Komandan İlham Əliyev müharibə dövründə onlarla müsahibələr verərək, bəzi ermənipərəst jurnalistlərin təxribat dolu suallarını tarixi faktlar və dəlillərlə cavablandırdı. Prezident İlham Əliyev xalqımızın qəlbində milli qəhrəmana çevrildi və onun adı tariximizə qızıl hərflərlə həkk olundu.

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin qolu olan məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir və bu məhkəmələr azad, demokratik, humanist və dünya ədliyyə standartlarına uyğun olaraq qərar vermə, məhkəmə işini aparma hüququna malikdir.

Dünya liderlərinin də qeyd etdiyi kimi, siyasi aspektdən baxdıqda hüquqi və demokratik dövlətin qurulması, formalaşdırılması və inkişafı strukturlaşdırılmış ədliyyə sisteminin formalaşdırılması ilə sıx şəkildə bağlıdır. Ona görə ki, yalnız formalaşmış və güclü ədliyyə sistemi olan ölkələrdə qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqları, qanun qarşısında bərabərliyi yüksək səviyyədə təmin oluna bilər.

Böyük qürur hissi ilə demək istərdik ki, Vətən müharibəsində ərazi bütövlüyümüz uğrunda canlarını fəda edənlər sırasında ədliyyə və məhkəmə işçiləri, onların ailə üzvləri də olub. Bir çox ədliyyə işçilərinin könüllü olaraq Silahlı Qüvvələrə Yardım Fonduna və "YAŞAT" Fonduna əmək haqlarından vəsait köçürdüyü də məlumdur. Müharibə zamanı Ədliyyə orqanlarında mütəmadi olaraq qanvermə aksiyaları təşkil olunub. Şəhid ailələrinə dərin hüznlə başsağlığı verir və yaralı qazilərimizə tezliklə sağalmalarını arzulayırıq.

Azərbaycan Respublikasında müasir standartlara cavab verən ədliyyə və məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində atılan məqsədyönlü addımlar cənab Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatların, böyük quruculuq işlərinin, sürətli sosial-iqtisadi inkişafın təzahürüdür.

**İlham ƏHMƏDOV,**
**Bakı Kommersiya Məhkəməsinin sədri.**